# Mixail Qusmanın "Anatoli Dobrının. Səfirin həyatından 24 il və 14 gün" filminin Azərbaycanda premyerası olub

Rusiyanın TASS agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmanın "Anatoli Dobrının. Səfirin həyatından 24 il və 14 gün" adlı sənədli filminin CBC telekanalında premyerası olub. Filmdə SSRİ ilə ABŞ arasında ən dramatik qarşıdurmalardan birindən - 1962-ci ildə başlanmış Karib böhranından bəhs edilir. Bu böhranın nizamlanmasında Anatoli Fyodoroviç Dobrının əvəzsiz rol oynayıb.

Anatoli Dobrının 1962-ci ildə SSRİ-nin ABŞ-da səfiri təyin edilib və demək olar ki, əsrin dörddəbiri qədər bu vəzifədə çalışıb. Bu müddətdə Birləşmiş Ştatlara altı prezident rəhbərlik edib. O vaxt hələ gənc olan sovet diplomatı Anatoli Dobrınının ünsiyyətdə olduğu ilk ABŞ Prezidenti Con Kennedi idi. Dobrının ilə Kennedi arasında etimada əsaslanan münasibətlər yaranması Karib böhranının həllində və daha sonra "Raketdən-müdafiə Sistemlərinin Məhdudlaşdırılması haqqında" Müqavilənin imzalanmasında müstəsna rol oynayıb.

AZƏRTAC xəbər verir ki, filmə nadir sənədli sübutlar və o dövrün mühüm tarixi hadisələrinin bilavasitə iştirakçıları - Anatoli Dobrınının özü, ABŞ-ın sabiq müdafiə naziri Robert Maknamara, Birləşmiş Ştatların ovaxtkı dövlət katibi Henri Kissincer və bir sıra başqa diplomatlarla müsahibələr daxil edilib.




Tarixi-sənədli filmin müəllifi Mixail Qusman Anatoli Dobrınınla şəxsən tanış idi. Onlar 1975-ci ildə tanış olublar. İllər keçəndən sonra Mixail Qusman sovet diplomatiyasının əfsanəsi ilə geniş müsahibəni lentə alıb və həmin müsahibə filmin süjet xəttinin əsasını təşkil edib. Mixail Qusman bu film barədə azərbaycanlı tamaşaçılara məlumat verərək deyib ki, onun bu ekran əsəri Anatoli Dobrınının 100 illiyinə həsr edilib və bu görkəmli diplomatın xatirəsinə hörmət əlamətidir. Çox cəhətdən məhz Dobrınının səyləri sayəsində dünya nüvə müharibəsi təhlükəsindən xilas olub.

Mixail Qusman sənədli filmin CBC telekanalında göstərilməsindən əvvəl söylədiyi ön sözdə deyib: "Biz dünyamızın nə qədər kövrək olduğunu və çox vaxt özümüz də bunu dərk etmədən fəlakətli həddə yaxınlaşdığımızı, bəşəriyyətin necə dəhşətli təhdidlərlə üzləşməli olduğunu göstərmək istəmişik.

Mən bu filmin hələ yaz aylarında Bakıda göstərilməsini planlaşdırırdım, lakin gözlənilmədən meydana çıxmış pandemiya planlarımızı dəyişdirdi.

Münaqişələrin həllində diplomatik səylərin rolunu lazımınca qiymətləndirmək çətindir. Biz bunu Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması nümunəsində aşkar gördük. Rusiya və Azərbaycan prezidentlərinin çox böyük diplomatik səyləri, Ermənistanın baş naziri tərəfindən vəziyyətin başa düşülməsi üçtərəfli bəyanatın imzalanması ilə nəticələndi. Mənə belə gəlir ki, bununla əlaqədar film həm süjet baxımından maraq doğuracaq, həm də dünyamızın bu gün də çox kövrək olduğunu anlamaq üçün ibrət dərsi olacaq".

Azərbaycan.-2020-29 noyabr.-S.8.